## Azərbaycan Qızıl Aypara Cəmiyyətinə dövlət qayğısının artırılması haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin humanitar xeyriyyəçilik fəaliyyətinin ölkəmizdə sosial problemlərin həllində əhəmiyyətini nəzərə alaraq, 12 avqust 1949-cu il tarixli Cenevrə konvensiyalarına, onlara 1997-ci il tarixli Əlavə protokollara, beynəlxalq Qızıl Xaç və Qızıl Aypara hərəkatının nizamnaməsinə uyğun olaraq və Azərbaycan Qızıl Aypara Cəmiyyətinə dövlət qayğısını artırmaq məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti iki ay ərzində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin maliyyə və maddi-texniki vəziyyətinin yaxşılaşdırılması ilə bağlı təkliflərinə baxaraq müvafiq tədbirlər planı hazırlayıb təsdiq etsin.

2. Azərbaycan Respublikasının yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarına tövsiyə edilsin ki, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin yerli təşkilatlarının sosial, tibbi-sağlamlıq və xeyriyyəçilik proqramlarının həyata keçirilməsinə kömək etsinlər.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 31 yanvar 2004-cü il
70